# Özünəməxsusluğu ilə seçilən musiqi bayramı

## Dünya şöhrətli pianoçunun yubileyinə həsr olunub

XI Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində avqustun 2-də Heydər Əliyev



Konqres Mərkəzində musiqisevərlərə dünya şöhrətli pianoçu Oksana Yablonskayanın 80 illiyinə həsr olunmuş "Oksana Yablonskaya və dostları" adlı konsert proqramı təqdim olunub.

Konsertdə SSRİ xalq artisti, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, XI Qəbələ Beynəlxalq Musiqi Festivalının bədii rəhbəri Fərhad Bədəlbəyli çıxış edərək O.Yablonskayanın həyat və yaradıcılığı barədə məlumat verib.

Kamera konsertində Oksana Yablonskaya, ABŞ-dan olan pianoçular Ninq-Vu Du, Helen Sim, Ukraynadan gəlmiş violonçel ifaçısı Yuri Poqoretski və pianoçu İrina Starodub, həmçinin pianoçular Fərhad Bədəlbəyli, Murad Adıgözəlzadə, solist Səbinə Əsədova tamaşaçılar qarşısında maraqlı konsert proqramı ilə çıxış ediblər.

Konsertdə L.Bethoven, F.Şopen, F.Şubert, R.Şuman, S.Raxmaninov, Q.Qarayev və F.Əmirovun əsərləri səsləndirilib.

**"Qəbələ" İlkin Vəlizadə (foto).**

## "Kiyev virtuozları" maraqlı konsert proqramı ilə çıxış edib

XI Qəbələ Beynəlxalq Musiqi Festivalının üçüncü günü musiqisevərləri, şəhərin qonaqlarını "Kiyev virtuozları" maraqlı konsert proqramları ilə sevindirib.



Avqustun 2-də axşam Qəbələ Mədəniyyət Mərkəzində tamaşaçılara həmin orkestrin konsert proqramı təqdim olunub. Konsertdə festivalın təşkilatçı qurumlarının təmsilçiləri, musiqisevərlər, şəhərin qonaqları iştirak ediblər.

XI Qəbələ Beynəlxalq Musiqi Festivalının bədii rəhbəri, dünya şöhrətli violençel ifaçısı Dmitri Yablonskinin (İsrail-ABŞ) dirijorluğu ilə gerçəkləşən konsertdə solistlər Boris Andrianov (Rusiya) və Toğrul Hüseynlinin (Azərbaycan) ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

**"Qəbələ"**

## Kamera musiqisi həvəskarları üçün konsert

Avqustun 3-də Heydər Əliyev Konqres Mərkəzində xalq artisti Fəxrəddin Kərimovun bədii rəhbəri və baş dirijoru



olduğu Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin konserti olub.

Konsertdə K.Cenkins, F.Şubert, P.Çaykovski, F.Kreysler, Q.Dinniku, P.Hindemit, həmçinin F.Əmirov, Ü.Hacıbəyli və T.Quliyevin əsərləri səsləndirilib. Solistlər - Əməkdar artistlər Nərgiz Kərimova (soprano) və Rəna Rəhimovanın (viola), beynəlxalq müsabiqələr laureatı Ceyla Seyidovanın (violin) ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

**"Qəbələ" Səhrab Umuyev (foto).**

## Xalq mahnıları və muğam gecəsi

Qəbələ Beynəlxalq Musiqi Festivalının dördüncü günü - avqustun 3-də axşam saatlarında mədəniyyət mərkəzində tamaşaçılara "Naz-nazı" muğam qrupunun konserti təqdim olunub.

Konsertdə instrumental qrupun ifasında "Şur", tarzən Nurlan Cəbizadənin ifa etdiyi "Çahargah" kompozisiyası, xanəndəl Pərviz Qasımovun və Gülnar Qüdrətlinin ifasında "Mirzə Hüseyn" segahı, "Şahnaz" muğamı, "Mahur" təsnifi və "Qarabağ şikəstəsi" tamaşa-



çılar tərəfindən alqışlarla qarşılanıb.

İstedadlı muğam ifaçılarını tarda Malik Mansurov, bəm tarda Behrad Bonyadi, kamançada Sevinc Mirzəli, udda Bayram Üzeyirov, qanunda Aynur İsgəndərova, nağarada Ramin Abdullayev, bəm nağarada Şəmsəddin Zərbəliyev müşayiət ediblər.

**"Qəbələ"**

## "Clarte" klarnet kvartetinin çıxışı maraqla qarşılanıb

XI Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində avqustun 4-də Heydər Əliyev Konqres Mərkəzinin kamera zalında mu-



siqisevərlərə daha bir konsert proqramı təqdim edilib.

Kamera musiqisi həvəskarlarının budəfəki qonaqları istedadlı gənc ifaçılar və Azərbaycanın "Clarte" klarnet kvarteti olub.

İstedadlı klarnet ifaçıları Məmməd Rəcəbli, Emil Bağırov, Məhəmmədəli Paşazadə və Anar Məmmədovun iştirakı ilə keçirilən konsertdə G.L.Cobbun "Russian Rag", Vaqif Mustafazadənin "Yollar", Tofiq Quliyevin "Zibeydə", İ.Volantenin "American feelinq" əsərləri səsləndirilib.

Kvarteti pianoda Ceyhun Əliyev, zərb alətlərində Ramiz Sevdiməliyev müşayiət ediblər.

**"Qəbələ"**

## Festivalın növbəti konsert proqramı təqdim edilib

Avqustun 4-də axşam Qəbələ Mədəniyyət Mərkəzində Ukraynanın məşhur "Kiyev virtuozları" simfonik orkestrinin növbəti konserti olub. Konsertdə festivalın təşkilatçı qurumlarının təmsilçiləri, musiqisevərlər, şəhərin qonaqları iştirak ediblər.

XI Qəbələ Beynəlxalq Musiqi Festivalının bədii rəhbəri, dünya şöhrətli violençel ifaçısı Dmitri Yablonskinin (İsrail-ABŞ) dirijorluğu ilə gerçəkləşən konsertdə kanadalı violençel ifaçısı Qreys Son, violin ifaçısı Janna Qandelman (İsrail) və pianoçu Nərmin Nəcəfli (Azərbaycan) maraqlı konsert proqramı ilə çıxış ediblər.



Konsertdə J.Bize, E.Elqar, P.Çaykovski, F.Şopen, P.Sarasate və İ.Şatrausun əsərləri səsləndirilib. Orkestrin və musiqiçilərin ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

**"Qəbələ"**

## Möhtəşəm kamera musiqisi axşamı

İyulun 31-də startı verilən XI Qəbələ Beynəlxalq Musiqi Festivalının sonuncu günü - avqustun 5-də axşam saatlarında Heydər Əliyev Konqres Mərkəzində musiqisevərlərə növbəti kamera konserti təqdim olunub.

İki hissədən ibarət konser-

**(Ardı 5-ci səhifədə).**